407:1.QXD 21.01.2018 14:02 Page 1


# KÜRD DİPLOMAT

xalqı mübariz və qəhrəman xalqdır

Heydər Əliyev

№ 02 (407) 22-28 Yanvar, Çileya paş, sal 2018

Ji meha şûbatê sala 2003-a tê weşandin

Həftəlik İctimai-siyasi qəzet

Rojnama heftename civakî û sîyasî

Qiyməti: Hêjaye: 40 qəpik


Bilirsən, nə etmiş kürdlər bir zaman?
Qurtarmış İslamı çox ağır dardan!
Qədim Avropanın xaçpərəstləri,
Yüz illər sındırmış göy məsçidləri.
Müsəlman keçmişin öyrənsə əgər,
Kürdün dərgahına daim baş əyər.

Səbahəddin Eloğlu


Səh. 2

## Prezident İlham Əliyev 20 Yanvar şəhidlərinin əziz xatirəsini yad edib


Səh. 4

## QANLI YANVAR DEYİL, ŞANLI YANVAR – AZADLIQ DASTANI


Səh. 14

## Премьер-министр Курдистана приветствует недавние переговоры Эрбиля и Багдада


Səh. 3

## Prezident İlham Əliyev Əhəd Abıyevi təltif etdi


Səh. 7

## Şəhidlər


Səh. 16

## Парламент Турции оштрафовал курдского депутата за слово “Курдистан”


Səh. 7

## 20 Yanvar şəhidlərinin xatirəsi laçınlılar tərəfindən anıldı

## ABŞ “kürd kartı”nı işə salır ki...
Səh. 8

## KNK: Êrîşa li ser Efrînê êrîşa li ser hemû Kurdistanê ye
Səh. 11

## ABŞ-ın yeni kürd dövlət planı: Raqqa paytaxt olacaq
Səh. 9

## Саудовская Аравия и Турция обеспокоены сближением Ирана с Ираком в нефтяной сфере
Səh. 14

## “Rusya, Afrin operasyonundan gerçekten rahatsız”
Səh. 10

## Сирия: курды под огнем Турции у Африна, САА с помощью ВКС РФ продвинулась в Алеппо
Səh. 15


Səh. 8

## “Kürd məsələsinin həlli Ankara ilə Moskvanın müttəfiq olmasındadır”


Səh. 12

## LI BAŞÛRÊ KURDISTANÊ QIYMETA PIŞTGIRIYA NAVNETEWEYÎ ÇI YE?


Səh. 6

## Azadlığa gedən yol


Səh. 7

## «20 YANVAR MÜSTƏQİLLİYİMİZİN ŞƏHİDLİK ZİRVƏSİDİR»

# Prezident İlham Əliyev 20 Yanvar şəhidlərinin əziz xatirəsini yad edib

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yanvarın 20-də - Ümumxalq Hüzn Günündə Şəhidlər xiyabanında 20 Yanvar şəhidlərinin xatirəsini yad ediblər.

Qanlı Yanvar hadisələrindən 28 il keçir. 1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olub, milli müstəqillik, azadlıq uğrunda mübarizəsinin və yenilməz iradəsinin rəmzinə çevrilib. Təpədən-dırnağadək silahlanmış keçmiş sovet ordusunun cəza tədbirlərinə məruz qalan xalqımız azadlıq əzmini itirməmiş, əksinə, haqq səsini daha ucadan bəyan etmişdi. Düz 28 il əvvəl doğma yurdunun, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları həmin müdhiş gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. Sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından uzun illər keçməsinə baxmayaraq, xalqımız o dəhşətli günlərin ağrı-acısını unutmur, öz vətəndaşlarına divan tutan sovet imperiyasının o vaxtkı rəhbərlərinə və onların Azərbaycandakı nökərlərinə dərin nifrətini bildirir.

Azərbaycana qarşı ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkarlığından və keçmiş SSRİ rəhbərliyinin onlara havadarlığından hiddətlənən, Bakının küçə və meydanlarına çıxaraq buna qəti etirazını bildirən xalq kütlələrinə qarşı sovet ordusunun döyüş hissələrinin yeridilməsi Azərbaycanda misli görünməyən faciəyə səbəb oldu. Milli azadlığı, ölkəsinin ərazi bütövlüyü uğrunda mübarizəyə qalxan dinc əhaliyə divan tutulması, kütləvi terror nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması totalitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirdi. Keçmiş sovet dövlətinin hərb maşınının həmin gün Azərbaycan xalqına qarşı həyata keçirdiyi vəhşi terror aktı insanlıq əleyhinə törədilən ən ağır cinayətlərdən biri kimi bəşər tarixinə yazıldı. Böyük itkilər, günahsız insanların qətli ilə nəticələnən 20 Yanvar faciəsi mərkəzi hakimiyyət başda olmaqla cinayətkar imperiya rəhbərliyinin Azərbaycana qarşı xəyanətkar siyasətinə dözməyən, azadlığına, müstəqilliyinə can atan xalqımızın həm də mübarizliyini, əyilməzliyini və məğrurluğunu nümayiş etdirdi.



20 Yanvar Azərbaycan xalqının tarixində sadəcə ağrı və acı ilə xatırlanacaq gün deyil. 20 Yanvar Azərbaycan xalqının şan və şərəf günüdür. Xalq həmin gün üstünə şığıyan dəhşətli kabusa, sovet hərbçilərinin qorxunc qaragüruhuna qarşı sinəsini sipər etməyi, özünün mənliyini və mətinliyini nümayiş etdirməyi bacardı. Məhz həmin hadisələr bilavasitə nümayiş etdirdi ki, Azərbaycan xalqı pozulan hüquqlarının, suverenliyinin bərpa olunması uğrunda savaşmaq əzminə sahibdir.

Təəssüf ki, həm SSRİ, həm də o vaxtkı Azərbaycan rəhbərliyi bu qanlı cinayətin bilavasitə təşkilatçısı və iştirakçısı olduğundan nəinki onun açılması və cinayətkarların məsuliyyətə cəlb olunmasından ötrü tədbirlər görmədi, əksinə bu vəhşiliyi gizlətmək üçün əlindən gələni etdi. 20 Yanvar faciəsindən bir gün sonra ulu öndər Heydər Əliyevin Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gedərək xalqımızın kədərini bölüşməsi və qırmızı rejimin ölkəmizdə həyata keçirdiyi qanlı aksiyanı ifşa etməsi o dövrdə xalqımıza bir dayaq, bir təsəlli oldu. Xalq o ağır günlərdə köməksiz olmadığını hiss etdi.

Əlbəttə, ermənilərin fitvası ilə törədilmiş bu cinayət Azərbaycan xalqının iradəsini qıra, azadlıq eşqini söndürə bilmədi. Xalqımız qanı bahasına da olsa istəyinə - azadlıq və müstəqilliyinə qovuşdu və bu nailiyyəti heç vaxt əlindən verməyəcək.

Keçmiş sovet hərb maşınının Azərbaycanda törətdiyi qanlı qırğın mahiyyətinə görə dövlətin öz vətəndaşlarına qarşı tarixdə misli görünməmiş təcavüzü, qətliamı idi. Bu, keçmiş SSRİ və Azərbaycan SSR konstitusiyalarının kobudcasına pozulması, ayaqlar altına atılması idi. Həmin gün keçmiş SSRİ dövləti dinc əhalinin üstünə qoşun yeritməklə BMT Nizamnaməsinə, beynəlxalq hüquq normalarına məhəl qoymamış, iştirakçısı olduğu Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktın bir sıra müddəalarını cinayətkarcasına pozmuşdu.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışından sonra - 1994-cü ildə 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verildi və cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı. 20 Yanvar - Ümumxalq Hüzn Günü elan edildi.

Azərbaycan xalqı hər il 20 Yanvar faciəsi qurbanlarının xatirəsini dərin ehtiramla yad edir.

* * *

Yanvarın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qanlı Yanvar faciəsində həlak olanların əziz xatirəsini yad etmək üçün Şəhidlər xiyabanına gəldilər.

Dövlətimizin başçısı "Əbədi məşəl" abidəsinin önünə əklil qoydu.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi hərbi orkestrinin ifasında Azərbaycan Respublikasının dövlət himni səsləndi.

* * *

Dövlət və hökumət rəsmiləri, respublikamızdakı dini icmaların başçıları, xarici ölkələrin Azərbaycandakı səfirləri, beynəlxalq təşkilatların nümayəndələri də şəhidlərin əziz xatirəsini yad etdilər.

* * *

Şəhidlər xiyabanının ziyarət olunması mərasimində Milli Məclisin sədri Oqtay Əsədov və Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev iştirak ediblər.

# Prezident İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin nümayəndə heyətini qəbul edib



Prezident İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin xarici əlaqələr komitəsinin rəhbəri Volkan Bozkırın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Böyük Millət Məclisinin xarici əlaqələr komitəsinin rəhbəri Volkan Bozkır Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. Volkan Bozkır bildirdi ki, Bakıya budəfəki səfərinin məqsədi Azərbaycan Respublikası Milli Məclisinin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi ilə birgə keçirilən iclasda iştirak etməkdir. Bir neçə gün sonra ölkəmizdə Qanlı 20 Yanvar hadisələrinin ildönümünün qeyd olunacağını xatırlayan Volkan Bozkır 2018-ci ilin, eyni zamanda, bir neçə əlamətdar hadisələrlə də zəngin olacağını qeyd etdi. Qonaq bu il Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyinin, Qafqaz İslam Ordusunun Bakını erməni işğalından azad etməsinin 100-cü ildönümünün, həmçinin müstəqilliyini yenidən bərpa etdikdən sonra Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk dövlətin Türkiyə olmasının 25 illiyinin təntənəli qeyd olunması ilə bağlı bir sıra tədbirlərin həyata keçiriləcəyini bildirdi.

Ötən il ərzində üç dəfə Türkiyəyə səfər etdiyini deyən Prezident İlham Əliyev Türkiyə Respublikası Prezidentinin, Baş nazirinin, həmçinin müxtəlif nazir və millət vəkillərinin Azərbaycana səfərlərinin əhəmiyyətini qeyd etdi, ölkələrimiz arasında dostluq və əməkdaşlıq əlaqələrinin daim möhkəmləndiyini, Azərbaycan ilə Türkiyənin beynəlxalq təşkilatlar çərçivəsində sıx əməkdaşlıq və qarşılıqlı dəstək nümayiş etdirdiklərini vurğuladı.

Dövlətimizin başçısı Türkiyə Böyük Millət Məclisinin xarici əlaqələr komitəsinin rəhbəri Volkan Bozkırın Bakıya budəfəki səfərinin də öz növbəsində uğurlu olacağına, parlamentlərarası əlaqələrin Azərbaycan-Türkiyə birliyini və əməkdaşlığını daha da möhkəmləndirəcəyinə əminliyini ifadə etdi. Prezident İlham Əliyev 2018-ci ilin ölkəmizin tarixində önəmli hadisələrlə zəngin bir il olacağına əminliyini bildirdi, Türkiyə ilə Azərbaycanın bu il də böyük layihələr həyata keçirəcəklərini dedi. Prezident İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.

Sonda xatirə şəkli çəkdirildi.

407:1.QXD 21.01.2018 14:02 Page 3



# ƏHƏD ABIYEV — 60

Əhəd Mikayıl oğlu Abıyev 1958-ci ilin yanvarın 15-də Masallı rayonunda anadan olmuşdur. Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun iqtisadiyyat və planlaşdırma fakültəsini və Universitetin hüquq fakültəsini bitirmişdir. Uzun müddət Bakı şəhər İcraiyyə Komitəsində böyük müfəttiş, böyük iqtisadçı, Bakı şəhər İcraiyyə Komitəsində ictimai əsaslarla Xalq Nəzarəti komitəsinin sədri, Bakı Şəhər İcra Hakimiyyətində işçilərin Həmkarlar İttifaqının sədr müavini, 1991-1995-ci illərdə Bakı Şəhər İcra Hakimiyyətinin Əhalinin sosial müdafiəsi və məşğuliyyəti şöbəsinin müdiri vəzifələrində çalışmışdır.

1993-cü ildən Yeni Azərbaycan Partiyasının üzvüdür.

Seçicilərin yüksək etimadı nəticəsində 1995-2000-ci illərdə birinci, 2000-2005-ci illərdə ikinci, 2005-2010-cu illərdə üçüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinin 15 il müddətində deputatı seçilmişdir.

Əhəd Abıyev ölkədə baş verən ictimai-siyasi proseslərdən kənarda qalmamış, ölkəmizin qanunvericilik bazasının gücləndirilməsində yaxından iştirak etmiş, respublikamızın beynəlxalq əlaqələrinin genişlənməsində, dövlətçiliyimizin möhkəmləndirilməsində Milli Məclisin üzvü kimi xüsusi xidmətlər göstərmiş, həmişə seçicilərinin etimadını qazanmışdır.

Parlamentdəki fəaliyyəti dövründə Milli Məclisin Regional məsələlər daimi komissiyasının üzvü, Azərbaycan-Portuqaliya, Azərbaycan-Əlcəzair, Azərbaycan-Hindistan, Azərbaycan-Avstriya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Azərbaycan Respublikası Toponimiya Komissiyasının üzvü olmuşdur. Milli Məclisin deputatı kimi 68 xarici ölkədə rəsmi səfərlərdə olmuşdur. Azərbaycan Kikboksinq Fed-



erasiyasının Birinci vitse-prezidentidir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 23 fevral 2011-ci il tarixli Sərəncamı ilə Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin edilmişdir. Hal-hazırda həmin vəzifədə çalışır.

Ailəlidir. İki övladı var.

Əhəd Abıyevin əməyi Dövlətimiz tərəfindən yüksək qiymətləndirilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 12 yanvar 2018-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının ictimai-siyasi həyatının fəal iştirakına və yüksək peşəkarlığına görə Əhəd Abıyev II dərəcəli "Vətənə xidmətə görə" Ordeni ilə təltif olunmuşdur.

Əhəd Abıyevi anadan olmasının 60 illik yubileyi, "Vətənə xidmətə görə" Ordeni ilə təltif olunması münasibətilə təbrik edir, ömrünün ən gözəl çağında möhkəm cansağlığı, çoxşaxəli dövləti fəaliyyətində yeni-yeni uğurlar arzulayırıq.

Əminik ki, bundan sonra da Yeni Azərbaycan Partiyasının fəal üzvü, ictimai-siyasi dövlət xadimi kimi müstəqil Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin siyasətinin dəstəklənməsi yolunda səylərinizi əsirgəməyəcəksiniz.

Dövlətimizin sosial-iqtisadi inkişafını, ölkəmizin qüdrətlənməsi, beynəlxalq aləmdə nüfuzunun artması istiqamətində Dövlət Başçımızın rəhbərliyi ilə gələcəkdə də görüləcək işlərdəki fəaliyyətinizdə Sizə nailiyyətlər diləyirik.

Bu gözəl yubileyiniz münasibətilə Sizi bir daha ürəkdən təbrik edir, Sizə sağlam uzun ömür, ailə xoşbəxtliyi və Müstəqil Azərbaycanımızın möhkəmlənməsi naminə yorulmaz ictimai-siyasi fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayırıq.

***Elmar VÜQARLI,***
***"Daşkəsən" qəzetinin baş redaktoru, Azərbaycan Yazıçılar Birliyinin üzvü***

# "Azərbaycanın işğal altında olan ərazilərində tarix və mədəniyyət abidələrinin mühafizəsi və təbliği" layihəsinin icrası Laçın rayonunda da həyata keçirilmişdir

Laçın rayon sakinlərinin daha sıx məskunlaşdıqları Ağcabədi rayonunun Taxtakörpü qəsəbəsində - Laçın rayonunun Şamkənd kənd uşaq musiqi məktəbində Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi ilə "Yaradıcı Gənclərə Dəstək" İctimai Birliyi tərəfindən "Azərbaycanın işğal altında olan ərazilərində tarix və mədəniyyət abidələrinin mühafizəsi və təbliği" layihəsinin icrası məqsədilə tədbirin keçirilməsi təmin olunmuşdur.



Ərazidəki ümumtəhsil məktəblərinin müəllim və yuxarı sinif şagirdlərinin iştirak etdiyi tədbiri giriş sözü ilə açan Laçın Rayon Gənclər və İdman idarəsinin rəisi Natiq Mustafayev tarix və mədəniyyət abidələrinin nəsildən-nəslə ötürülən, dəyəri heç nə ilə ölçülməsi mümkün olmayan, həmin xalqın qeyri-maddi mədəni irsi olduğunu bildirmişdir. Eyni zamanda bildirmişdir ki, ermənilər işğal etdikləri ərazilərdə abidələri məhv etməklə yanaşı 3000-dən çox abidə üzərində daş divar yazıları, bədii nümunələr dəyişdirilərək erməniləşdirilməyə məruz qalmışdır. Məhz bu səbəbdən işğal altında qalan milli-mədəni dəyərlərimizin öyrənilməsi və mühafizəsinin təşkili günümüzün həlli vacib olan ən aktual məsələlərindən biridir.

"Yaradıcı Gənclərə Dəstək" İctimai Birliyinin təlimçisi Rasim Başirov Azərbaycanın işğal altında olan ərazilərində tarix və mədəniyyət abidələrinin keçmişi və bugünkü vəziyyəti ilə bağlı çıxış edərək bildirmişdir ki, dünyanın ən qədim xalqlarından biri olan Azərbaycan xalqı özünün maddi-mədəniyyət abidələri ilə bütün dünyada tanınmışdır. SSRİ hakimiyyəti illərində Azərbaycan ərazilərində daşınmaz tarix və mədəniyyət abidələrinin aşkar edilməsi, qeydiyyatı və mühafizə edilməsi işləri səthi aparıldığından Azərbaycanda xeyli sayda tarix və mədəniyyət abidələri qeydiyyatdan kənarda qalmış, abidələrin pasportlaşdırılması işləri isə ümumiyyətlə aparılmamışdır. Bu isə Azərbaycanın işğal olunmuş ərazilərində özünü daha qabarıq şəkildə büruzə verir. Natiq eyni zamanda bildirmişdir ki, məqsədimiz əzəli tarixi yurdumuz olan Qarabağın, o cümlədən qədim insan məskəni olan Laçın rayonu haqqında daş dövründən bu günə qədər mövcud olan tarixi abidələrin tarixini və onların sonrakı taleyi haqqında məlumatları gənclərə çatdırmaqla yanaşı, bu abidələrin mühafizəsi məqsədilə beynəlxalq təşkilatlar qarşısında məsələ qaldırmaq və onların diqqətini bu məsələyə yönəltməklə bu abidələrin qorunmasına nail olmaqdır. Eyni zamanda o, bildirmişdir ki, tarix və mədəniyyət abidələrinin məhv edilməsi bir xalqın milli varlığının yer üzündən silinməsinə bərabər olan bir hadisədir.

Tədbirdə iştirak edən Laçın Rayon İcra Hakimiyyəti başçısı aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini - dini qurumlarla işin təşkilatçısı Cabir Əvəzzadə Azərbaycan Respublikasının dövlətçilik tarixinə, milli-mənəvi, eyni zamanda maddi-mənəvi dəyərlərinə əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan diqqət və qayğının məhz bu gün Ölkə Prezidenti İlham Əliyev tərəfindən davam etdirildiyini bildirmiş, bu mövzuda tədbirin ərazisi işğal olunmuş bir rayonun məktəbliləri ilə keçirilməsinin çox təqdirəlayiq bir hal olduğunu bildirmişdir. Natiq eyni zamanda bildirmişdir ki, ermənilərin işğal etdikləri ərazilərdə Azərbaycanın tarixini məqsədli şəkildə məhv etməsi, yer adlarını və toponimləri dəyişdirməsi, mədəni dəyərlərimizi qarət etməsi Azərbaycan dövlətinə rəqəmlərlə hesablanması mümkün olmayan zərər vurmuşdur. İşğal olunmuş ərazilərdə tarixi abidələrin mühafizəsi və qorunması məqsədlə dövlətimiz tərəfindən mütəmadi işlər aparılır, aidiyyəti beynəlxalq təşkilatlar qarşısında daima məsələlər qaldırılır.

Tədbirdə çıxış edən digər natiqlər də ermənilərin tarix və mədəniyyət abidələrimizə qarşı törətdikləri vandalizm hərəkətlərini pisləyərək, bildirmişlər ki, bu gün Azərbaycanın güclü ordusu var. Azərbaycan ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qədim yurd yerlərini düşmənlərdən azad edəcək və tarixi abidələrimizə sahib çıxacaq.

Tədbirin sonunda iştirakçılara bukletlər və sertifikatlar təqdim olunmuşdur.

# Prezident İlham Əliyev Əhəd Abıyevi təltif etdi

Prezident İlham Əliyev Əhəd Abıyevin 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.

Sərəncamda deyilir:

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Əhəd Mikayıl oğlu Abıyev 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

# Ordudan təxris olunan gənclərin qarşılanma mərasimi keçirildi

Tərtər Rayon Heydər Əliyev Mərkəzində rayon icra hakimiyyəti Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsi ilə birlikdə hərbi xidmətdən tərxis olmuş gənclərin qarşılanma mərasimi keçirmişdir.

Əvvəlcə gənclər Ulu Öndərin Mərkəzi Meydanda ucaldılmış abidəsi önünə gül-çiçək dəstələri qoymuş sonra Heydər Əliyev Mərkəzində Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən eksponatlarla tanış olmuşlar. Tədbir "dəyirmi masa" arxasında davam etdirilmişdir.



Mərasimi giriş sözü ilə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinin rəisi İslam Məmmədov açaraq gənclərə ordu quruculuğunda görülən işlərdən danışmış, bildirmişdir ki, Azərbaycan Ordusunun güclü maddi-texniki bazası, şəxsi heyəti, yüksək döyüş və mənəvi-psixoloji hazırlığı vardır. Xalqla ordunun birliyi möhkəmdir.

Sonra Qarabağ müharibəsi əlili, Tərtər özünümüdafiə batalyonun sabiq komandiri Pənah Məmmədov, valideyinlər adından Azər Quliyev, hərbi xidmətdən yeni qayıtmış Vüsal Vəlibəyli, gənclərin çağırışaqədər hazırlıq müəllimi Telman Həsənov çıxış edərək hərbi xidmətdə əsgərlərə göstərilən diqqət və qayğıdan söhbət açdılar.

Tədbirdə iştirak edən rayon icra hakimiyyətinin başçısının birinci müavini Ramiz Şabanov gəncləri salamlayaraq onların valdeyinlərinə gözaydınlığı verdi. O, ordu quruculuğundan, ölkə rəhbəri tərəfindən bu sahəyə göstərilən diqqət və qayğıdan, 48 km təmas xətti olan Tərtər rayonunun ön cəbhədə yerləşən kəndlərində aparılan tikinti-abadlıq işlərindən, onların sosial problemlərinin həllindən, şəhid ailələrinə, müharibə veteranları və əlillərə göstərilən qayğıdan, onların adlarının əbədiləşdirilərək rayonumuzun küçələrinə verilməsindən, həmin küçələrdə aparılan abadlıq işlərindən, küçələrin girişində adları verilən şəhidlərimizin barelyeflərinin hazırlanıb qoyulmasından danışdı. Onların döyüş fəaliyyətinin gənclərimizə örnək olduğunu vurğuladı.

Sonra xidmətdə fərqlənmiş bir qrup gəncə rayon icra hakimiyyəti və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Tərtər rayon şöbəsi tərəfindən qiymətli hədiyyələr təqdim olundu.

# Samux məktəblərinin istiliklə məsləsi həll edilib



Samux rayonunda məktəblərdən 18-i mərkəzi qazanxana ilə qızdırılır. 3 məktəb elektrik enerjisi, yerdə qalan təhsil ocaqları isə odunla isidilir. Rayon üzrə 35 məktəbdə təhsil alan 9 minə yaxın şagirddən 4 mindən çoxunun istiliklə bağlı çətinliyi olmur. Bu isə dərs prosesinə və davamiyyətə müsbət təsir göstərir. Təhsil şöbəsindən verilən məlumata görə, isidilmə formasından asılı olmayaraq rayondakı bütün məktəblə istiliklə təmin edildiyindən dərslərdə davamiyyətin aşağı düşməsi müşahidə edilmir.

Seyidağa Qasımov şagird: Hamımız dərslərimizə vaxtlı-vaxtında hazırlaşırıq. Havaların soyuq olması baxmayaraq sinif otaqları istidir. Bu səbəbdəndə dərsdən yayınmırıq. Əminə Cəfərova Samux şəhər 2 saylı tam orta məktəbin direktoru: Məktəbimizdə 470 dən artıq şagird təhsil alır. Məktəbimizdə istiliklə bağlı heç bir problem yoxdur. Məktəbimizin binası yeni qurulduğundan ümumi qazanxana sistemi ilə təchiz edilib. Bu sahədə problem olmadığından şagirdlərin dərsə davamiyyəti yaxşıdır. Yüksək səviyyədə də təhsil alırlar.

407:1.QXD 21.01.2018 14:02 Page 4



## Baş redaktordan:

# QANLI YANVAR DEYİL, ŞANLI YANVAR – AZADLIQ DASTANI



***Hərdən biz ata-babalarımızın nəsihətlərini unuduruq, özü də tez unuduruq. Babam Kürd Musa, ömrünün sonuna-yəni 115 yaşına qədər Qərbi Azərbaycanın Vedibasar əyalətində yaşamışdır. O, hər zaman ermənilərin müxənnət olduqlarından danışardı və bizə tövsiyəsi də o olardı ki, ermənilərə etibar etməyin. Çünki, onlar fürsət düşən kimi, öz pis əməllərini həyata keçirəcəklər.***

Mən ona qədər erməni-müsəlman davası görmüşəm. "İtlə yoldaş olanın zopası əlində olmalıdır", deyə bizə nəsihət verərdi.

İllər keçdikcə bu sözlərin müdrikliyinin şahidi olduq. Şovinistlərin fitvası ilə erməni daşnakları Azərbaycanın əzəli yerləri olan Dağlıq Qarabağ torpaqlarının işğalına başladı. Və düz 28 il əvvəl -1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycan xalqının başına gətirilən faciələrin ən dəhşətlisi gətirildi. Vətənin istiqlalı və milli azadlığı uğrunda mübarizəyə qalxan qəlbindəki vətən sevgisindən başqa heç bir silahı olmayan əliyalın, günahsız insanlar, təpədən dırnağa qədər ən müasir silahlarla silahlanmış, azğın erməni daşnaklarının və Sovet imperiyası qoşunlarının amansız vəhşiliyinin qurbanı oldular.

Güllü-çiçəkli Bakımızın qara asvalt yolları, xalqımızın azadlığı uğrunda mübarizəyə qalxan, igid oğlan və qızlarımızın qanı ilə boyandı. Xalqımız öz suverenliyi uğrunda mübarizədə ilk şəhidlərini verdi. Paytaxtın Azadlıq meydanından Şəhidlər Xiyabanına qədər qırmızı qərənfillərlə şəhidlərə misli görünməmiş "çələng" hörüldü, matəm çələngi. Onlar öz ölümləri ilə əbədi ölməzlik qazandılar. Şəhidlər Xiyabanı vətən yolunda canlarını fəda vermiş oğul və qızlarımız üçün əbədi mənzil oldu. Al-qırmızı qərənfillər Şəhidlər Xiyabanının rəmzinə çevrildi. Bünövrəsi qanla qoyulan bir quruluşun sonu, qanla da bitməli idi. Belə ki,1986-cı ildə Alma-Atada qazax xalqının qırğını, 1988-ci ildə Fərqanə hadisələri,1989-cu ilin aprelində Tbilisi qətliyamları, 1990-cı ilin yanvarında Bakıda, 1991-ci ildə Vilnus şəhərində qanlı qırğınlar törədildi. Təəssüf ki, Moskva və Bakıda oturan satqın rəhbərlərin hazırladığı cinayətkar planlar həyata keçirildi.



Bakı əhalisi dəhşətli səhnə ilə üz-üzə qaldı. Sinəsi güllələrdan deşik-deşik olmuş insan cəsədləri ürəkləri göynədir, tükürpədici nalələrin sədası ərşə qalxırdı.

20 Yanvara açılan səhərdə 130-dan artıq şəhid, 700-dən artıq yaralı qana boyandı.

Bu hadisələri gizlətməyə çalışan dövlət rəhbələrinin əksinə olaraq, Moskvada yaşayan və işləyən Ulu Öndər Böyük Heydər Əliyev etiraz əlaməti olaraq Sov.İKP sıralarından çıxması üçün bəyanatla çıxış etdi. Bu, təkcə siyasi partiya üzvünün deyil, uzun müddət Sovet rəhbərlərindən biri olmuş qorxmaz bir şəxsiyyətin cəsarətli hərəkəti idi. Xalq heç vaxt yanılmır, ona görə də gec də olsa qardaş qırğınının vaxtında qarşısının alınması üçün Azərbaycanın xilaskarını Bakıya gətirdi və qısa zamanda yarana biləcək vətəndaş müharibəsinə və hərcmərcliyə son qoyuldu. Xalqımızın, Azərbaycanımızın azadlığı uğrunda canlarını qurban verənlərə mərkəzi Moskva hökuməti terrorist adı versə də, məhz Ulu Öndər Böyük Heydər Əliyevin tarixi xidmətidir ki, 20 Yanvar qırğını Ümummilli faciə səviyyəsinə qaldırıldı və ona hüquqi-siyasi qiymət verildi. Ulu Öndər Böyük Heydər Əliyev şəhidlərin ruhunun yad edilməsinə həmişə böyük diqqət yetirərdi. Onun şəxsən şəhidlər üçün abidə kompleksinin tikdirməsinə nəzarət etməsi, xalq tərəfindən xüsusi qiymətləndirilmişdir. Bu, xalqın gələcəyi üçün atılan mühüm bir addım idi.



İnanırıq ki, 20 Yanvar qəhrəmanları heç vaxt unudulmayacaq, Şəhidlər Xiyabanı xalqımızın inanc yeri və ziyarətgahı olmuş və hər zaman olacaqdır. Ancaq təsəlli ondadır ki, Vətənimiz və xalqımız uğrunda tökülən qanın hesabına Azərbaycanımız azad, Vətənimiz müstəqildir. Azərbaycan xalqı öz müdrik Lideri Ulu Öndər Böyük Heydər Əliyevin rəhbərliyi ilə müstəqilliyini əldə etmişdir. Xalqımız yaxşı bilir ki, Ulu Öndər Böyük Heydər Əliyev siyasətini inamla davam etdirən hörmətli Prezidentimiz İlham Əliyev cənabları daxili və xarici siyasəti nəticəsində ölkəmizi öndə gedən ölkələr sırasına çıxarmaqla xalqımızın və vətənimizin qarantı olduğunu əməli işi ilə isbat etmişdi.

### TARİX

1990-cı il yanvarın 20-də Azərbaycanın ərazi bütövlüyünü pozmaq cəhdlərinə, keçmiş SSRİ rəhbərliyinin Azərbaycanla bağlı apardığı qərəzli siyasətə, yerli rəhbərliyin xalqımızın mənafeyinə zidd mövqedə durmasına qarşı etiraz əlaməti olaraq küçələrə çıxmış dinc əhaliyə divan tutmaq məqsədilə Bakıya və respublikanın digər rayonlarına sovet hərbi hissələri yeridildi. Dinc əhalinin kütləvi etiraz aksiyalarının ağır hərbi texnikanın köməyi ilə vəhşicəsinə dağıdılması təkcə süquta uğramaqda olan sovet siyasi sisteminin qorunması cəhdi kimi deyil, həm də azərbaycanlıların tarixi torpaqlarından sıxışdırılıb çıxarılması ilə bağlı Çar Rusiyasının əsrlərlə apardığı mənfur siyasətin yeni şəraitdə davamı idi.

20 Yanvar hadisəsi xalqımızın yaddaşına qanlı faciə kimi daxil olsa da, bütövlükdə milli tariximizin ən şanlı və qəhrəmanlıq səhifələrindən birini təşkil edir. Məhz 20 Yanvardan başlayaraq Azərbaycan xalqı SSRİ-nin tərkibində ədaləti bərpa etməyin qeyri-mümkünlüyü və milli haqlarımıza obyektiv yanaşma nümayiş olunacağına öz inamını birdəfəlik itirdi.

Hakimiyyətin mənbəyi sayılan və öz hüquqları uğrunda düşüncəsi, fikri, sözü, həmrəyliyi ilə mübarizəyə qalxmış bir xalq 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə öz zəhmli ordusunun tankları, işıq saçan zəhərli gülləleri, xüsusi təyinatlı hərbi dəstələri, pozuculuq-təxribat işlərini təşkil edən çevik qrupları ilə üzləşdi...

Bakıda fövqəladə vəziyyət tətbiq edilməsinə baxmayaraq, yanvarın 22-də Azərbaycan xalqı şəhidləri ilə vidalaşdı. Paytaxt matəm libası geyinmişdi. Respublikada 3 gün matəm elan olunmuşdu. Azərbaycanın bütün rayonlarında və Bakıda izdihamlı matəm mitinqləri keçirildi.



Bakıda keçirilən matəm mərasimində bir milyondan çox insan iştirak edirdi. Bu, Azərbaycan xalqının azadlıq səsi, haqq, ədalət, demokratiya və müstəqillik uğrunda mübarizə əzmi idi. 20 Yanvar faciəsi törədilən zaman Azərbaycan xalqı ağır iflic vəziyyətinə və informasiya blokadasına salınmışdı, radio, televiziya susdurulmuş, onun enerji bloku silahlı hərbiçilər tərəfindən vəhşicəsinə partladılmış, mətbuatın nəşrinə qadağa qoyulmuşdu. Azərbaycan sakit və ölü bir dənizə bənzəyirdi. Xalq ağır və dəhşətli faciədən xəbərsiz idi. Görünməmiş qəddarlıqla keçirilən cəza tədbirləri nəticəsində heç bir günahı olmayan 133 dinc sakin öldürüldü, 744 nəfər yaralandı, 841 nəfər qanunsuz həbs olundu. Həlak olanların arasında qadınlar, uşaqlar və qocalar olmuşdur.

Bu hadisə sovet rejiminin törətdiyi ən qanlı faciələrdən biri və dinc əhaliyə qarşı yönəlmiş vəhşi bir cinayət hadisəsi idi. Xalqın bu ağır günlərində, yanvarın 21-də Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək, təşkil olunmuş yığıncaqda çıxış edərə, xalqla birgə olduğunu bildirdi, 20 Yanvar faciəsinə siyasi qiymət verdi, onun hüquqa, demokratiyaya, humanizmə zidd olduğunu, mərkəzin və o zamankı respublika rəhbərlərinin günahı üzündən yol verilmiş kobud siyasi səhv olduğunu göstərdi. Bu tarixi çıxışın mətni dünyaya, respublikaya geniş yayıldı. Xalqın qəlbində ümid çırağı yandı.



1993-cü ildə ulu öndər Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışından sonra 20 Yanvar faciəsinin baş verməsinin səbəblərinin araşdırılması və onu törədənlərin məsuliyyətə cəlb olunması məsələsi istiqamətində mühüm addımlar atıldı. 20 Yanvar faciəsinin xalqımızın tarixində yeri və rolu, bu faciənin əbədiləşdirilməsi və bütün dünya ictimaiyyətinə çatdırılması yönündə mühüm işlər görülmüşdür.

Ümummilli liderin 1994-cü il yanvarın 5-də 20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi ilə bağlı verdiyi Fərmanda Azərbaycan Respublikasının Milli Məclisinə faciəyə tam və əsaslandırılmış siyasi-hüquqi qiymət verilməsi tövsiyə olundu. Milli Məclis 1994-cü il martın 29-da 1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında qərar qəbul etdi. Bununla da Prezident Heydər Əliyevin təşəbbüsü və təkidi nəticəsində 20 Yanvar faciəsinə dövlət səviyyəsində hüquqi-siyasi qiymət verildi.

Bakı şəhərinin ən hündür yerində yerləşən Şəhidlər Xiyabanında Azərbaycanın azadlığı uğrunda mübarizədə şəhid olanların xatirəsinə ucaldılmış möhtəşəm "Əbədi məşəl" abidə-kompleksi də ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə tikilmişdir.

Azərbaycan Prezidentinin 2000-ci il, yanvarın 17-də imzaladığı Fərmanla 1990-cı il 20 Yanvar faciəsi zamanı şəhid olanlara "20 Yanvar Şəhidi" fəxri adı verilmişdir.

Bu gün Azərbaycan xalqı azadlıq uğrunda canlarını qurban edən şəhidlərimizin və cəsur Vətən övladlarının qəhrəmanlıq mübarizəsini çox böyük hörmət və ehtiramla əziz tutur, onların igidliyini yüksək qiymətləndirir.

Şəhidlərimizin qanı bahasına qazanılan müstəqilliyimizi qanımızla və canımızla qorumalı, ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi, onu daimi, əbədi və dönməz etməliyik.

***Tahir Süleyman***

407:1.QXD 21.01.2018 14:02 Page 5






## Şəhidlər

Qatil gülləsinə qurban gedirkən,
Gözünü sabaha dikdi Şəhidlər.
Üçrəngli bayrağı öz qanlarıyla,
Vətən torpağına çəkdi Şəhidlər...

Zalım öyünməsin zülümləriylə,
Min bir böhtanıyla, min bir şəriylə.
Həqiqət uğrunda ölümləriylə,
Ölümü kamına çəkdi Şəhidlər...

O şənbə gecəsi, o qətl günü,-
Mümkünə döndərdik çox namümkünü,
Xalqın qəlbindəki qorxu mülkünü,
O gecə dağıdıb söktü Şəhidlər...




Tarixi yaşadıb diləyimizdə,
Bir yumruğa döndük o gecə bizdə.
Yıxıb köləliyi ürəyimizdə
Cəsarət mülkünü tikdi Şəhidlər...

Onlar susdurulan haqqı dindirər,
Qaraca torpağı qiymətləndirər.
Donan vicdanları qeyrətləndirər,
Axı, el qeyrəti çəkdi Şəhidlər...

Bilirik, bu bəla nə ilkdi, nə son,
Ölürkən uğrunda bu Ana yurdun.
Quzu cildindəki o qoca qurdun,
Doğru, düz cildini çəkdi Şəhidlər...

Dözdü hər zillətə, dözdü hər şeyə,
"Dünyada mənimdə haqqım var " ,- deyə
Kütləni xalq edən müqaviləyə,
Qanıyla qolunu çəkdi Şəhidlər...

İnsan insan olur öz hünəriylə.
Millət, millət olur xeyri, şəriylə,
Torpağın bağrına cəsədləriylə,
Azadlıq tumunu əkdi Şəhidlər.
***ALLAH bütün Şəhidlərə Rəhmət eləsin...!!!***

# «20 YANVAR MÜSTƏQİLLİYİMİZİN ŞƏHİDLİK ZİRVƏSİDİR»




20 Yanvar Azərbaycan vətəndaşının yaddaşına müstəqilliyin qazanılması uğrunda mübarizənin zirvəsi kimi əbədi həkk olunmuş bir tarixdir. Məhz bu tarixdə, 1988-ci ildən başlamış xalq hərəkatı özünün kulminasiya nöqtəsinə çatdı və Azərbaycanın yüzlərlə qəhrəman oğulları bu yolda, azadlıq və müstəqillik uğrunda şəhid olaraq gələcək nəsillərə istiqlaliyyət və azadlıq bəxş etdilər.

Bəli, 20 Yanvar gecəsində minlərlə Azərbaycan övladını meydanlara, silahlı rus qəsbkarlarının qarşısına çıxaran qəlblərində gəzdirdikləri doğma torpağın bütövlüyü, toxunulmazlığı və azadlıq arzusu idi. Bu faciə bizə müqəddəs bir and yeri miras qoydu. Doğma Bakımızın Dağüstü parkı kimi tanınan məkan Şəhidlər Xiyabanına döndü.

Azərbaycan xalqı şəhidlik zirvəsinə ucalan oğul və qızlarını hər an hədsiz ehtiramla yad edir və daim yad edəcəkdir. İndi hər bir azərbaycanlı lazım gələn anda 20 Yanvar şəhidlərinin getdiyi şərəfli yolu təkrarlamağa hazırdır. Müstəqil dövlətimizin və dövlətçiliyimizin qarantı da, məhz milli qürurunu, vətəndaşlıq qeyrətini hər şeydən üstün tutan belə oğulların varlığıdır.

Ulu öndər 20 Yanvar hadisələrinə ilk




siyasi qiymət verərək bu faciəni törədənlərin kimliyini dünya ictimaiyyətinə çatdırdı. O ağır günlərdə xalqı ilə həmrəy oldu, xalqın sınmış inamını özünə qaytardı. İnsan üçün ən müqəddəs şəxs onu dünyaya gətirən anadırsa, onu müqəddəsliyə bağlayan vasitə Vətən torpağıdır. Çünki ana öz övladını onun özü üçün də müqəddəs olan Vətən torpağında dünyaya gətirir. Vətən bizim şöhrətimiz, qeyrətimiz, ülviyyətimizdir. İnsan üçün ən ümdə olanı Vətən torpağının azadlığı və toxunulmazlığıdır. Azadlıq heç kimə xoşluqla verilmir. Azadlıq qanla, canla qazanılır, qorunur və gələcək nəsillərə əmanət verilir. Azərbaycan xalqı da əsrlərlə azadlıq uğrunda çarpışmış, istiqlal naminə mübarizə aparmışdır.

Azərbaycan bizə ulu babalarımızın müqəddəs əmanəti, ərmağanıdır. Bu torpağın hər bir qarışı ölüm-dirim çar- pışmalarında şəhid olmuş ata-babalarımızın qanından yoğrulmuşdur. Odur ki, bu gün damarlarında ulu babalarımızın qanı axan hər bir azərbaycanlı torpağını, azadlığını qanları, canları bahasına qorumağa hazırdır. Ulu öndərin layiqli davamçısı, dövlətimizin başçısı İlham Əliyevin Azərbaycan ordusunun daha da qüdrətlənməsi, ən müasir döyüş silahları ilə təchiz edilməsi üçün həyata keçirdiyi siyasətin nəticəsidir ki, bu gün Milli Ordumuz düşmənin hər hansı bir təcavüzünə layiqincə cavab verməyə qadirdir.

İnanıram ki, biz, şəhidlərin ruhunu sevindirəcək, onların səpdiyi azadlıq toxumunun cücərtilərini göyərdəcək, Qarabağ torpağını, eləcə də işğal altında olan bütün torpaqlarımızı düşməndən azad edəcək, şəhidlərimizin qisasını alacağıq. Azərbaycanı bir daha dünyaya layiqincə tanıdacağıq.

### YATMA OYAN, QALX AYAĞA, MİLLƏT OY

Vətənimiz parçalanıb dağıldı,
Dərd içindən dərd gücərib doğuldu.
Həyatımız başdan- başa nağıldı,
Vətən dağı dərd boxçamdı aman oy,
Bizə yaman qənim oldu zaman oy.

Xocalıdan axan qanlar silinmir,
Cəbrayılım harda qalıb bilinmir,
Qubadlımın Nəbi nəsli görünmür,
Cavanşirim, Qoç Koroğlum, Nəbim oy,
Görən yoxmu, indi belə əmim oy.

Fizuli, Zəngilan, Cəbrayıl hanı,
Görən kim siləcək tökülən qanı.
Ey millət özünü, özünü tanı,
Yatma oyan, qalx ayağa millət oy,
Bəsdi yetər çəkdiyimiz zillət oy.

Ağdamın ağ bəxdi qaraya döndü,
Günahsız Vətənin ocağı söndü,
Qürurlu millətin qüruru sındı,
Alllah, yoxmu bu dərdlərə çaran oy,
Haqsız yara, sının yaran, yaran oy.

Ümüdümüz günü-gündən nazilir,
Kür Araza həsrət-həsrət süzülür.
Heç bilmirəm bu dərd necə dözülür,
Yüz illərlə qan gölündə üzdüy oy,
Axı niyə bu dərdlərə dözdüy oy.

Düşmənlərin niyə başı əzilmir,
Kədər badəsinə sevinc süzülmür,
Dərdin düyçəsindən həsrət çözülmür,
Dərələyzim, çözülməyən düyçəm oy,
Təbrizim oy, Zəngəzurum, Göyçəm oy.

Dərdin xırmanında üyünür dənim,
Dünyanı bürüdü dumanım, çənim.
Celiləm, taftanır şərəfim, mənim,
Dəlidağda elsiz qalan daşam oy,
Qanadları dibdən sınmış quşam oy,
Laçınım oy, Kəbəcərim, Şuşam oy!

# 20 Yanvar faciəsinin görünməyən tərəfləri

## *28 il əvvəl Sovet Ordusu azadlıq mübarizəmizi boğmaq üçün Bakıya girdi*

Azərbaycan tarixinin ən qanlı səhifələrindən birinin 28-ci il dönümü gəlib çatdı.

Yanvarın 19-da artıq çoxları dəqiq bilirdi ki, Bakı ətrafında cəmləşmiş hərbi qruplaşma hər an hücuma keçə və atəş aça bilər. Çünki, ilk atəş ayın 17-dən 18-nə keçən gecə açılmışdı. Bunun izahını Bakının hərbi komendantı general Sokolov belə vermişdi. "Əmri mən vermişəm, girov götürülə biləcəyimdən qorxduğum üçün". Əslində bu, ordunun hər an silah işlədə biləcəyinin ilk əlaməti idi. Amma həmin günlərdə əsas diqqət buna yox, Mərkəzi Komitənin qarşısındakı mitinqə yönəlmişdi. Yanvarın 19-u səhər yenə mitinq abhavasındaydı. Mərkəzi Komitədə isə nə Primakov, nə Girenko, nə də Vəzirov gözə dəyirdi. Bircə Polyaniçko və bir də içəridə 300-dən artıq rus əsgəri var idi. Etibar Məmmədovun sözlərinə görə, həmin vaxt o özü də bu binada olub və əsgərlərin onun gözü qarşısında atəş nöqtələrini necə tutduqlarını, pəncərələrin qabağında avtomat və pulemyotlar yerləşdirdiyini müşahidə edib. Onda Etibar Məmmədov Mərkəzi Komitənin ikinci katibinə deyib ki, onsuz da Vəzirovu hakimiyyətdən uzuqlaşdırmısız. Çıxıb bunu xalqa elan edin, mitinq də dağılsın. "O zaman Palyaniçko dedi ki, Vəzirov onsuz da gedib. Ancaq biz sizin istəyinizin nəticəsi kimi elan edə bilmərik" – deyə keçmiş AXC İdarə Heyətinin üzvü Etibar Məmmədov bildirib. İşarə verilmişdi. Etibar Məmmədov isə deyir ki, bunu atəş nöqtələrini tutan əsgərlərin mitinqi dağıt-



maq istəyi kimi qiymətləndirdim. O aşağı enib əhalinin artıq hərəkətə yol verməmələrinə nəzarət etməsi üçün milis işçilərini məlumatlandırdığını da deyir. Özü isə telestudiyaya tələsməliydi. Saat 8-də çıxışı vardı.

Televiziyanın enerji bloku saat 19:27 dəqiqədə partladılır. Saat 20-də isə Bakıda fövqəladə vəziyyətin tətbiq olunması haqqında SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı imzalanır. Təbii ki, televiziya öz fəaliyyətin dayandırdığından fərman haqqında əhalini xəbərdar etmək mümkün olmur. Beləliklə, yanvarın 19-dan 20-nə keçən gecə ordu Bakı üzərinə yeriyir. Hərbi qruplaşmanın tərkibinə 295-ci motoatıcı diviziya, 76, 104, və 106-cı qvardiya havadesant diviziyalarının üç polku, xüsusi təyinatlı 22-ci briqada, Qara dəniz donanmasının 882-ci dəniz piyadaları batalyonu, DTK-nın 7-ci idarəsinin "Alfa" qrupu və s. hərbi hissələr daxil idi. SSRİ hərbi birləşmələrinin Bakıya yeridilməsi nəticəsində paytaxtda və respublikanın rayonlarında 131 nəfər öldürülür, 744 nəfər yaralanır. Həlak olanların 124 nəfəri kişi, 7-si qadın, 7-si yetkinlik yaşına çatmamış uşaqlar idi. Sonradan ekspertiza müəyyən edir ki, qoşunlar tərəfindən tətbiq olunmuş MJV - 13 güllələrinin ağırlıq mərkəzi dəyişdirilmiş, bu isə maneəyə toxunarkən güllələrin uçuş istiqaməti dəyişmişdi. Təəssüf ki, 20 yanvar faciəsi dünyanın Mixail Qarbaçova münasibətini dəyişmir. Törətdiyi cinayətə görə beynəlxalq aləm onu qınamır. Əksinə, Buş və Tetçer bu münasibətlə onu təbrik edir. Can verməkdə olan bir ölkənin rəhbərini. İki il sonra Allah onu daha sərt cəzalandıracaq. İmperiya taxtından yerə salacaqdı.

407:1.QXD 21.01.2018 14:02 Page 6



# Azadlığa gedən yol

## (poemasından son hissələr)



ƏDALƏT BƏDİRXANLI

Bir gün azad yaşamaq!
Yüz illik ömrə dəyər!
Kölə kimi qul olsaq!
Min ömür hədər gedər!

**V - hissə**
**Müqəddəs and yerimiz**

Yanvar ayıdır həmən,
Qar ələyir dünəndən.
Neçə illər keçibdi,
O dəhşətli gecədən.
Yenidən doğan səhər,
Şəfəq saçırdı hərdən.
Baba donub qalmışdı,
Baxırdı pəncərədən.
Xatırlayaraq ötən,
Qanlı gecəni həmən.
Elə bil yatmamışdı,
Axşamdan səhərəcən.
Bayırda qar yağırdı,
Yağdıqca çoxalırdı.
Uşaqlar da bu qarla,
Qartopu oynayırdı.
Hər il olduğu kimi,
Faciə gecəsini,
Xatırlayaraq baba,
Səslədi nəvəsini.
Asta tutub əlindən,
Dedi:- oğlum, gəl gedək,
Uyuyan şəhidlərin,
Biz də keçək önündən.
Bu gün qanlı yanvarın,
Anım mərasimidir.
Hamı ziyarət üçün,
Oradan keçməlidir.
Hər il neçə min nəfər
Əlində qərənfillər,
Yad eyləyir onları,
Orda uyuyanları.
Qanlı Yanvar zamanı,
Axan şəhidlər qanı,
Hər damla bir qərənfil,
Bürümüşdü hər yanı.
Bilirsənmi, ay oğul,
Elə həmin o gündən,
Ad gününə aparmır,
Kimsə pay qərənfildən.
Hər insan qərənfili,
Bir damla qan sanırdı.
Hər məzarda qərənfil,
Bir də şəhid yatırdı.
Qərənfillər həmin gün,
Yağış kimi yağırdı.
Bir vətəndaş bunları,
Bax belə ağlayırdı:
* * *
Sol əlində qərənfil,
Sanki layla çalırdı.
Sağ əlində bir qələm,
Dizi üstə yazırdı.
* * *
Yağdın damla-damla,
sən yana-yana,
Canlı buludlardan,
al qərənfilim.
Düzüldün xalı tək
sən Xiyabana,
Hər biri bir damla,
qan qərənfilim!

Bir amal yolunda
gedənlərimə,
Əbədi yaşayan
ölənlərimə,
Təkcə sən pay
oldun şəhidlərimə,
Nə ağ, nə də sarı,
al qərənfilim!

Ağlayan ağladı,
göz yaşı axdı,
Nalələr, şivənlər,
göylərə qalxdı.
Heç kim kor olmadı,
baxdı, hey baxdı,
Bircə sən kor oldun,
al qərənfilim!

Çatışmır imkanın
çöldə bitəsən,
Özün bir nazənin,
nazlı çiçəksən,
İndi ayaq altda
səpələnmisən,
Ellərin göz yaşı,
al qərənfilim!

Hamı ayaq üstə
keçir önündən,
Yox-yox, qərənfillər
tutub əlindən.
Əyilməz qəddini
əyir belindən,
Şəhidlər önündə,
al qərənfilim!

Dərdimiz dərindir,
dəryadan dərin,
Sayı məlum deyil
heç şəhidlərin.
Vətəni ağlayan
azərilərin,
Köksündən göz yaşın,
sil qərənfilim!

Sən ana əlində
gedirsən hara,
Rəngi al-qırmızı,
ey bəxti qara?!
Ana öz oğlunu
tapşırıb ora,
Sinəsi çal-çarpaz,
dağ qərənfilim!
* * *
Gedək biz də gül alaq,
Ancaq al qərənfillər.
Orda yatan şəhidlər
Yalnız onu sevirlər.
* * *
Bir dəstə gül aldılar,
Şəhərə yollandılar.
İzdiham çox möhtəşəm,
Axışırdı adamlar.
Cərgədə məktəblilər,
Bir anda tələbələr.
Əllərində qərənfil
Bütün ali məktəblər.
Əsgərlər, generallar,
Əksər ali qurumlar,
Neçə nənə, babalar,
Həm də çoxlu qonaqlar.
Dövlətin rəhbərləri,
Ölkə səfirlikləri.
Qolunda çələkləri,
Qarabağ əlilləri.
Qoşulub izdihama,
Çatdılar xiyabana.
Sıralandı cərgələr,
Düzüldülər yan-yana.
Dəstə-dəstə keçdilər,
Dualar söylədilər.
Hər məzara qərənfil
Qoyaraq baş əydilər.
Neçə-neçə cavanlar,
Üzü nurlu qocalar,
On üç yaşlı uşaqlar,
Yan-yana yatırdılar.
Qara daşda simalar,
Üstündə adları var.
Bir şəhidin yatdığı,
Naməlum məzar da var.
Azadlıq istəyənlər,
Canın fəda edənlər,
Qərənfildən pay alıb,
Uyuyurdu şəhidlər.
Tam ziyarət etdilər,
Son məzara yetdilər.
Elə bil danışırdı,
Daşlardakı şəkillər.
Abidəyə çatdılar,
Bir anlıq dayandılar.
Elə bu an Xəzərdə,
Gəmilər fit çaldılar.
Burada yanan məşəl,
Fasiləsiz yanırdı.
Məşəlin yanmağında,
Hər şey xatırlanırdı.
Xatirətək duracaq,
Bu ucalan göydələn.
Yaddaşlarda qalacaq,
Şəhid əzəmətiynən.
Yaranan bu Xiyaban,
Xatırlanır hər zaman.
Bütün Bakı görsənir,
Şəhidlərin yanından.
Rəhmətlik ulu öndər,
Qonaqları gətirər,
Həm ziyarət edərdi,
Həm də sözün deyərdi.
Göstərərdi xalqının,
Günahsız qurbanların.
Anladardı bir daha,
Azadlığın yolların.
Səfirlər bu arada,
Sırayla düzülərdi.
Hamı bir-bir babaya,
Hüzürhaxlıq edərdi.
Bil ki, Heydər babanın,
Tarixdə öz yeri var.
Onun haqq əməlləri,
Qaldı bizə yadigar.
Qanı axıdılanlar,
Şəhid yatan bu dağın,
Özləri boyadılar,
Azərbaycan bayrağın.
* * *
Bir tarix yaratdılar,
Yazdılar bu daşlara.
Azad bir yol açdılar,
Yerində qalanlara.
* * *
Nəvə tutub babanın,
Titrəyən əllərindən,
Soruşdu nə bilirsən,
Burdakı şəhidlərdən?
Bu sualı eşidən,
Baba duruxdu həmən.
Danışmağa başladı,
Olanları əzəldən.
* * *
Deyirlər ki, şəhidlik
Əl çatmayan zirvədir!
Torpaq -onun uğrunda
Ölən varsa, Vətəndir!

**VI-cü hissə**
**"Qanlı yanvar"**

Bu gecə o gecədir,
Qanlı döyüş meydanı!
Orda olan insanlar,
Unutmayır, o anı!
O dəhşətli tankların,
Zirehli maşınların,
Qarşısına çıxdılar,
Meydanlarda qalanlar!
Əli yalın insanlar,
Küçələrdə qalanlar,
Əllərin qızdırmağa,
Ocaq da yandırdılar!
Xalq etiraz edirdi,
Fikrini bildirirdi.
Xalqın azadlıq səsi,
Rusa sərf eləmirdi.
Düşmən deyirdi ancaq,
Qırılsa da bütün xalq.
Bu torpaq yağlı tikə,
Azadlıq olmayacaq.
Neçə yüz min xüsusi,
Qoşun da gətirdilər!
Hətta dəniz tərəfdən,
Şəhərə yeritdilər.
Küçələri tutdular,
Yolları bağladılar,
Əlləri silahlılar,
Şəhəri dondurdular!
Mətbəələr bağlandı,
Qəzet çapı dayandı,
Radio, telekanallar,
Susduruldu,qapandı
Donduruldu mətbuat,
Səpələndi camaat!
Keçirtdi küçələrdə,
Məlumatsız bir həyat.
Azadlıq istəyənlər,
Bir araya gəldilər.
"Azadlıq" radiosun,
Ümid yeri seçdilər.
Hər xəbər başlayanda,
Koroğlu çalınırdı.
Əsər səslənən kimi,
Hamı əl qaldırırdı.
* * *
Üzeyir bəy bu qədər,
Yazıb, bəsləyib əsər.
Mənim üçün o andan,
Koroğludur şah əsər!
* * *
Sanki doğurdu günəş,
Çalınanda bu əsər.
Bu səsdən yetisirdi
Vətən üçün şəhidlər!
Mən canlı şahidiyəm,
O müdhiş gecələrin.
Bu bir sınaq anıydı,
Şəhidlik sevənlərin.
"Azadlıq" radiosu,
Nə varsa şərh edirdi.
Mirzə Xəzər dünyaya
Tez-tez xəbər verirdi.
Heç kim inanmırdı ki,
Qoşun hücum edəcək,
Dövlət öz vətəndaşın,
Avtomatla biçəcək.
Xalq geri çəkilmədi,
Getmədi heç bir yana.
"Vətən"," torpaq" deyərək,
Qıydılar şirin cana.
Təpədən dırnağacan,
Silahlanmış dəstələr.
Silahsız adamları,
Yerində öldürdülər.
İnsanları əzdilər,
Çoxunu gizlətdilər.
Qan içənlər cəsədin-
Çoxunu vermədilər!
* * *
Məktəbli partasında,
Alim arabasında,
Atəşlə susduruldu,
Çoxu öz komasında!
* * *
Ağ bayraq qaldırıldı,
Düşmən buna baxmadı.
Haray-həşir, qışqırıq,
Məhəl qoyan olmadı!
Hamı qalmışdı darda,
Yardım maşınları da.
Yaralı daşınırdı,
Güllələr yağışında.
Tanınmaz oldu şəhər,
Küçələrdə cəsədlər!
Hətta xəstəxanada,
İşığı söndürdülər.
Planı əvvəlcədən,
Hazırlamışdı düşmən.
Nəzarətə almışdı,
Şəhəri hər tərəfdən.
Hərbiçi generallar,
Məxvi plan cızdılar.
Şəhərin mərkəzində,
Qərərgah yaratdılar.
Studiyanı tutdular,
Bloku partlatdılar.
Şəhərin insan kimi,
Ürəyini yardılar.
* * *
Allah, gör bu nə işdi,
Bu nə bəla, gəlişdi?!
Yetmiş il qardaş olan,
Simasını dəyişdi!
* * *
Əmr verdi Qarbaçov,
Bakıya gəldi Yazov.
Hərbiləşdi vəziyyət!
Mer qoyuldu Tiqunov.
Tapşırıqlar verildi,
Yeni plan seçildi,
Küçələrə zirehli,
Texnika yeridildi.
Hər yanda qara xəbər,
Hər küçədə cəsədlər...
Millət donub qalmışdı,
Başsız qalmışdı şəhər.
Hamı kədər içində,
Al qərənfil əlində,
Meydana axışırdı,
Bakının kəndləri də.
Ağır idi dərdimiz,
Yox idi rəhbərimiz.
Yükün altına girdi,
Allahşükür, Şeyximiz!
Şeyximiz, Bakatini,
Yazovu da danladı.
O qədər danladı ki ,
Deməyə söz qalmadı!
Dedi: Yazığım gəlir,
Siz insan deyilsiniz!
O böyük siyasətin
Özünüz düşmənisiz!
Böyük bir namə yazdı,
Göndərdi Qarbaçova.
Bir gün sən də, inşaallah,
Gedəcəksən torpağa.
Günahsız şəhid qanı,
Bir millətin qanıdır!
Bu tarixi cinayət,
Sənin ayağındadır!
Bu namə, bir bəyanat,
Xalqımın cavabıdır!
Ey əli qanlı cəllad!
Bəs vicdanın hardadır?!
Məlumdur niyyətiniz,
Dünya bilir kimsiniz!
Tək bizə yox, çoxuna,
Cəllad kəsilmisiniz!
* * *
Düşmən hey çalışırdı,
Şeyxi də aldatmağa.
İslamçılıq sözünü,
Salmışdı ortalığa.
Şeyx düşmənin hiyləsin
Əvvəlcədən bilirdi.
Rədd edib təklifləri,
Çox sərt cavab verirdi.
Kəskin nifrət, qəzəblə,
Şərt kəsdi düşmən ilə.
Dedilər: Şərti söylə!
Dedi: -Budur məsələ:
Qan tökən sizinkidir!
Ölənlər bizimkidir!
Cinayət sizinkidir!
Şəhidlər bizimkidir!
Bilirsiz nə gündəyik?!
Biz matəm içindəyik!
Günahsız şəhidləri,
Torpağa verməliyik!
Sizə budur şərtimiz,
Ya çıxıb getməlisiz,
Ya da dediklərimə,
Tam əməl etməlisiz!
Bir dənə də əsgərin,
Bizə yaxın gəlməsin!
Qırx gün matəm olacaq!
Gözə də görünməsin!
Elin din adamları,
Ziyalı insanları,
Gəldi Şeyxin yanına,
Dayaq oldular ona.
Bu izdihamda nələr,
Göz yaşları,qəm,kədər.
Milyonların əlində
Ancaq al qərənfillər.
Bu matəmin kədəri,
Bürümüşdü şəhəri.
Yola salırdı hamı,
Günahsız, şəhidləri.
Ağsaqqallar cəmləndi,
Dağüstü parka gəldi.
Hamı bir nəfər kimi,
Bax bu yeri bəyəndi.
Məzarlığa baxdılar,
Birgə qərarlaşdılar.
Hamı gəldi meydana,
Bir yerə yığışdılar.
Tabutlar gətirildi,
Azadlıq meydanına.
Al qərənfil səpildi
Hər şəhidin yoluna.
Düzüldü cənazələr,
Bir-birinin yanına.
